# Müasir təhsilin dəyər paradiqması

"Müasir təhsil" və "təhsildə müasirlik" anlayışlarının ifadə çalarındakı fərq onların məna tutumu haqqında da fikirləşməyi tələb edir. Doğrudanmı, bu ifadələr çox yaxın mənalara malik olmaqla oxşardır. Yaxud eyniyyət təşkil etməsi ilə onlar daha qabarıq görünmək imkanına malikdir. Bütün bu fikirlərin tərəfdarı olan, bəlkə də, çox adam var. Lakin həqiqət budur ki, təhsildə müasirlik anlayışı konkret olaraq təhsilin müxtəlif paradiqmalarından birini, daha doğrusu, onun müasirliyini ifadə etməklə gündəmə gətirir. Müasirlik paradiqmasında təhsilin bizim zamanımıza uyğun olan, bizim ehtiyaclarımıza, cəmiyyətimizin indiki tələbatlarına cavab verən spesifik cəhətlər nəzərdə tutulur. Elə cəhətlər ki, təhsilə ənənəvi yanaşmalar müstəvisində onları nə qədər axtarsan da tapa bilməzsən. Yaxud tapmağa çalışsan da onun zəif illüziyalarını hiss etməklə qərar verməkdə çətinlik çəkərsən. Bir də ki, bu zəif illüziyaların arasında həqiqətin solğun görüntüləri nə qədər işarsa da zamanında onlar olanların fonunda görünməz olaraq qalacaqdır. Tarixi ənənələrin şanlı səhifələrində daim axtarılacaq, qiymətli bir külçə kimi meydana çıxarılacaqdır. Müasir zamanın prioritet istiqamətinə, paradiqmasına çevriləcəkdir. Müasir təhsil dünyasının dəyər paradiqması kimi.

Bu gün təhsil dünyasında inkişafın istiqamətləri çoxşaxəlidir və bu şaxələrin mayasında yeniliklərə doğru təşəbbüslər dayanır. Elə yeniliklər ki, onlar cəmiyyətin ibarət olduğu insanların inkişaf tendensiyaları ilə üst-üstə düşür. Başqa sözlə, onların ehtiyac və tələbatlarından pərvəriş tapır, arzu və istəklərinin üzərində qurulur. Hər şeydən öncə, müasir şəxsiyyətin atributlarına çevrilir. Görünür, alimlərimizin bu qənaəti də düzdür ki, "İnsan üçün əhəmiyyətli olan, şəxsi və ictimai əhəmiyyət kəsb edən hər şey dəyərdir".

Təbii ki, elmin panoramında dəyərlərin müxtəlif çeşidləri aydın şəkildə bərq vurur. İstər sosial dəyərlər, istər mənəvi dəyərlər, istərsə də pedaqoji dəyərlər olsun, onların hər birinin şəxsiyyət ampulasında öz yeri var. Şəxsiyyət özünün kamillik səviyyəsində bunları əxz etmiş olur. Fəlsəfi yanaşmalar müstəvisində dəyərlərin sosial mahiyyəti ümumiləşdiyi kimi, bu dəyərlərin şəxsiyyət amilinə çevrilməsi mexanizmlərinin əsasında pedaqoji texnologiyalar dayanır. Aksioloji yanaşma tərzi kimi dəyərləndirilən bu pedaqoji yanaşmalar özlüyündə müasir təhsilin nəticələrdə görünən tərəfi olmaqla xüsusi aktuallıq kəsb edir. Müasir təhsilin fəaliyyət sistemində dəyərlərin formalaşdırılması, konkret olaraq onların inkişafı ifadə edən və onun tənzimlənməsinə imkan yaradan mexanizmi prioritet olmaqla gündəmdə dayanır.

Heç şübhəsiz, bu günün məktəbi istifadə etdiyi texnologiyalarla nə dərəcədə yeni hesab edilirsə, həm də o, özünün dəyəryönümlü fəaliyyəti və cəmiyyətin şəxsiyyət probleminin həllindəki xidmətləri ilə o dərəcədə müasir hesab olunur. Çünki o daha çox humanist və demokratik prinsiplərə söykənir. Vətəndaşın, şəxsiyyətin formalaşdırılmasını başlıca məqsəd kimi prioritet hesab edir. Özünün problemlərinin həllini yaddaş deyil, təfəkkür müstəvisində görür. Yaradıcı fəaliyyəti, kreativ bacarıqları təhsildə əsas nailiyyət hədəflərinə çevirir.

Təhsilin dəyər paradiqmasının mühüm parametrlərinin biri onun sinkretik mahiyyətli olmasıdır. Burada yüksək qabiliyyət, səriştəlilik adı ilə müxtəlif bacarıqlar (idraki, mənəvi, fiziki) inteqrasiya olunaraq bütövləşdirilir. Şəxsiyyətin əsas keyfiyyətləri olmaqla onun mühüm atributlarına çevrilir.

Dəyər paradiqmasında fəaliyyət əsas göstəricilərdən biridir. Bacarıq və qabiliyyətlər, səriştələr bu məqamda daha aydın görünür. Təhsil alanlar öyrəndikləri biliklərin daha əhəmiyyətli və lazımlı olduğunu məhz bu yolla göstərə bilirlər və nəticədə özlərinin səriştələrini, qabiliyyətlərini sübut edirlər. Belə bir fəaliyyətin təmin olunması ona yönəlmiş müəllim fəaliyyəti tələb edir: istiqamətverici və əlaqələndirici, eləcə də stimullaşdırıcı müəllim fəaliyyəti. Həm də elə fəaliyyət ki, müəllim özünün təcrübəsində məktəb üçün önəmli olan dəyər paradiqmasına bələdliyini nümayiş etdirə bilsin. Şagirdlərini artıq, əlavə informasiyalardan azad etməklə onları daha çox şəxsiyyət üçün lazım olan dəyərlərə (adilik, azadfikirlilik, ailə birliyinə önəm vermək, vətənsevərlik, qanunlara hörmət, tolerantlıq, məsuliyyətlilik, çalışqanlıq, qonaqpərvərlik, yardımsevərlik və s.) yönəltsin. Ümumi təhsilin məntiqinə uyğun olmayan akademizmdən yan keçsin.

Düşünmək olar ki, müəllimlərimizin içərisində dəyər paradiqması ətrafında düşünən, müəyyən təcrübə toplayan müəllimlərimiz vardır. Heç şübhəsiz, indiyə qədərki irəliləyişlərimizin bir səbəbi də qabaqcıllığı ilə sevilən həmin müəllimlərimizlə bağlıdır ki, onların da iş təcrübəsinə istinad etmək, ümumiləşdirmələr aparmaq lazımdır. Müasir zamanda səriştələrə əsaslanan yeni təhsil məzmununun yaradıldığı, yeni təhsil sisteminin qurulduğu bir vaxtda bu məsələlərin dəyər paradiqmasında həlli çox vacibdir.

**Ənvər ABBASOV,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*